**ƏDƏBİYYATŞÜNASLIQ**

*https://doi.org/10.30546/114578.2025.9.1032*

# SEYİD ƏZİM ŞİRVANİNİN BƏDİİ NƏSR YARADICILIĞINA BİR BAXIŞ

**Nazilə Abdullazadə**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*http://ORCİD.org./0000-0002-1829-7178*
*nazile.s.m.d@mail.ru*

**Xülasə**

Azərbaycan klassik ədəbiyyatının simalarından olan Seyid Əzim Şirvani ədəbiyyat tarixində Füzuli lirikasının davamçısı, maarifçilik cərəyanının qüdrətli nümayəndəsi, kəskin ruhlu satiralar müəllifi və təzkirə ustası kimi tanınır. Zəngin yaradıcılığında klassik şeirin qəzəl, qəsidə, rübai, tərkibbənd, tərcibənd, müxəmməs, müstəzad, müsəddəs və digər janrlarında parlaq nümunələr yaradan Seyid Əzim bədii nəsrdə də qələmini sınamış, hekayət, lətifə, nadirə janrlarında nümunələr yaratmışdır. Bu janrlar vasitəsilə şair həm maarifçi görüşlərini, həm də tənqidi və ictimai düşüncələrini oxucunun başa düşə biləcəyi sadə və təsirli formada təqdim etməyə çalışmışdır.

Ədəbiyyatşünaslıqda Seyid Əzim yaradıcılığı lirik kontekstdə daha çox öyrənilsə də, epik növdə əsərləri, xüsusilə nadirə və lətifə janrları ilə xalq ədəbiyyatına yaxınlaşması hələ də geniş təhlil edilməmiş sahələrdəndir. Halbuki bu bədii nümunələr şairin ictimai baxışlarını, təfəkkür tərzini və estetik dünyagörüşünü açmaq baxımından son dərəcə qiymətlidir.

**Açar sözlər:** epik növ, Seyid Əzim Şirvani, lətifə, hekayət, nadirə.

# A LOOK AT LITERARY PROSE WORDS OF SEYID AZIM SHIRVANI

**Nazile Abdullazade**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

Seyid Azim Shirvani, one of the prominent figures of Azerbaijani classical literature, is recognized in literary history as a successor of Fuzuli’s lyrical

tradition, a powerful representative of the enlightenment movement, an author of sharp satire, and a master of biographical anthologies (tazkira). In his rich body of work, he produced brilliant examples in classical poetic genres such as ghazal, qasida, ruba'i, tarkib-band, tarjib-band, mukhammas, mustazad, musaddas, and others. Seyid Azim also tried his hand at artistic prose, creating works in genres such as anecdote, story, and nadira. Through these forms, the poet sought to present both his enlightenment views and his critical and social reflections simply and effectively so that readers could easily understand.

Although Seyid Azim's work has been more extensively studied in terms of lyric poetry, his prose works − especially in the nadira and anecdote genres, which bring him closer to folk literature − remain relatively underexplored. Yet these literary examples are extremely valuable for revealing the poet's social views, mode of thinking, and aesthetic worldview.

**Key words:** epic genre, Seyid Azim Shirvani, anecdote, story, nadira.

## ВЗГЛЯД НА ЛИТЕРАТУРНО-ПРОЗАИЧЕСКОЕ ТВОРЧЕСТВО СЕЙИДА АЗИМА ШИРВАНИ

**Назиля Абдуллазаде**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Один из деятелей азербайджанской классической литературы Сейид Азим Ширвани вошел в историю литературы как последователь лирики Физули, яркий представитель просветительского движения, автор критических сатир, мастер тазкира. В своем богатом творчестве Сейид Азим, создавший блестящие образцы в жанрах классической поэзии, таких как газель, касыда, рубаи, таркиббанд, терджибанд, мухаммас, мустазад, мусаддас и др., пробовал свои силы и в художественной прозе, создавая образцы в жанрах рассказов, анекдотов, надира. Посредством этих жанров поэт стремился представить как свои просвещенные взгляды, так и критические и социальные мысли в простой и доступной для понимания читателю форме.

Хотя творчество Сейида Азима в литературоведении изучается преимущественно в лирическом контексте, его эпические произведения, особенно его обращение к народной литературе через жанры надира и анекдота, до сих пор остаются малоизученными. Однако эти

художественные образцы чрезвычайно ценны для раскрытия социальных взглядов, образа мышления и эстетического мировоззрения поэта.

**Ключевые слова:** эпический жанр, Сейид Азим Ширвани, анекдот, рассказ, надира.

## Giriş/Introduction

XIX əsr Azərbaycan ədəbiyyatı həm ictimai-siyasi dəyişikliklərin, həm də maarifçilik ideyalarının gücləndiyi bir dövr kimi səciyyələnir. Bu dövrdə yazıçı və şairlərin ədəbi fəaliyyəti yalnız poetik yaradıcılıqla məhdudlaşmır, eyni zamanda xalqa daha yaxın olmaq, onun dünyagörüşünü dəyişmək, cəmiyyətə maarif və tənqid yolu ilə təsir etmək ehtiyacı yaranır. Dövrün ictimai xronikası, şüurlarda baş verən dəyişiklik lirik şeirdən daha təsirli bir vasitəyə keçməyi tələb edir, yeni mövzular fərqli qəliblər – janrlar tələb edirdi. "*Ədəbiyyat həyat həqiqətini daha dərindən əks etdirməyə başladı; ədəbiyyatın mövzuları əhəmiyyətli dərəcədə həm genişləndi, həm də ictimailəşdi. 30-40-cı illərdə ədəbiyyatın mövzuları ayrı-ayrı rüşvətxor çar hakimləri, zülmkar bəylər və ruhanilərin tənqidi idisə, indi (XIX əsrin 60-70-ci illəri – N.A.) onun mövzularını feodal ətaləti, cəhalət və nadanlıq, gerilik və irtica, mənəvi boşluq, mütləqiyyət hakimiyyəti, zülm və zorakılıq əleyhinə mübarizə kimi aktual mövzular təşkil edirdi*" [Qasımzadə, 1974:247]. Y.Qarayevin dediyi kimi, "*Azərbaycan ədəbiyyatı bütün Yaxın və Orta Şərqdə tam yeni bir mərhələnin avanqardı olur... Mirzə Fətəlinin ardınca Şərqdə ən yeni, müasir bir ədəbi hərəkat nəhri təlatümə gəlir*" [Qarayev, 1980:94]. Dövrün ədəbiyyatında maarifçi və demokratik dünyagörüşünün dərinləşməsi poeziyanın sərhədlərini aşıb yeni ədəbi növ və janrların yaranması zərurətini ortaya qoydu; dramaturgiya ilə yanaşı, bədii nəsrin hekayə, povest, roman janrları meydana gəldi. Bu janrların bəziləri ədəbiyyat tarixində ilk olaraq (hekayə, povest, roman) yaranırdısa, bədii nəsrin bəzi kiçik janrları – lətifə, hekayət, nadirə və s. – bu şəraitdə aktual ifadə vasitələrinə çevrilir. Bu janrlar vasitəsilə həm sosial ədalətsizliklər, həm cəhalət, həm də gülüş və kinayə ilə təqdim olunan mənəvi dəyərlər ədəbi formada xalqa çatdırılır.

**Seyid Əzim Şirvaninin dövründə bədii nəsr və Şərq ədəbiyyatında kiçik janrların rolu.** Seyid Əzim Şirvaninin yaradıcılığı XIX əsrin 50-80-ci illərinə – ədəbiyyatda yeni meyillərin yaranıb formalaşdığı dövrə təsadüf edir və bu dövrdə Seyid Əzim "*incə ruhlu lirik, özünün kəskin, iti qələmi ilə ictimai həyatın dərin qatlarına nüfuz edib, cəmiyyətin sosial yaralarını cəsarətlə tənqid edən satirik, gənc nəslin təlim-tərbiyəsi, dünyəvi biliklərə yiyələnməsi*

*uğrunda yorulmadan çalışan müəllim-maarifçi, əxlaqi-tərbiyəvi hekayələr və təmsillər müəllifi, nəhayət, ədəbiyyatşünas-təzkirəçi və publisist kimi tanınır*" [AƏT, 2011:542]. Ədəbiyyat tarixi və Seyid Əzimə həsr olunmuş tədqiqatlarda da [bax: F.Qasımzadə, H.Səmədzadə, X.Məmmədov, Ə.Ağayev və b.] şairin yaradıcılıq yolu bu kontekstdə araşdırılmış, lirik, satirik şeirləri, satiraları, təmsil və öyüd-nəsihətləri, təzkirəsi filoloji və pedaqoji istiqamətdə tədqiqatçıların diqqətini çəkmişdir. Nədənsə şairin epik növ yaradıcılığına münasibət fərqli olmuş, bəzən tədqiqatlardan kənarda qalmış, hekayət, lətifə, nadirə janrlarının üzərindən susqunluqla keçilmişdir. F.Qasımzadə şairin bədii irsindən danışarkən Təbrizdə daş basmaxanasında nəşr olunan biri azərbaycanca, digəri farsca bədii irsinin birinci hissəsinin qəsidələr, ikinci hissəsinin qəzəllər, üçüncü hissəsinin mənzum hekayələrdən ibarət olduğunu qeyd etmiş, mənsur hekayətlərinin adını çəkməmişdir [Qasımzadə, 1974:410].

X.Məmmədov şairin öyüd, nəsihət və mənzum hekayələrinin toplandığı "Rəbiül-ətfal" dərsliyində şairin "cəmiyyətin xəstə cəhətlərini tənqid etməklə yanaşı, onu yenidən qurmaq yollarını da qeyd etdiyini" vurğulamış, mənzum hekayələrin mövzu baxımından rəngarəngliyindən, bu hekayələrdə "*ruhanilərin hiyləgərliyi, kəndlilərin hüquqsuzluğu, qadın əsarəti, pulun burjua-kapitalist cəmiyyətində pozucu rolu kimi məsələlərin aparıcı motiv*" olduğundan bəhs etsə də, mənsur hekayətlərinə toxunmamışdır [Məmmədov, 2005:24-28].

Z.Əsgərli şairin lirikası, əxlaqi-didaktik şeirləri, satiraları, təzkirəçilik fəaliyyətini akademik təhlillə yanaşı, bədii nəsri və publisistikası haqqında da söz açmış, hekayətlərinin bir qismində "*ədalətsizliyə, zülmə, müstəbid hakimlərə qarşı çıxmış, onların despotizmini və zülmkarlığını tənqid etmiş, ...bir sıra hekayələrində uşaqlara elmi, sənəti sevmək, xeyirli tövsiyələrə qulaq asmaq, tənqidə dözmək, təmkinli olmaq, ağıllı göstərişlərdən düzgün nəticələr çıxarmaq kimi əxlaqi-tərbiyəvi məsləhətlər verdiyi, lovğalığı, mənsəbpərəstliyi, elmə, sənətə adi gəlir mənbəyi kimi baxmağı pisləyirdi*" [Əsgərli, 2011:573]. Fikrimizcə, Seyid Əzimin poeziyada güclü mövqeyi bədii nəsrini kölgədə qoymuş, tədqiqatçılar ona çoxjanrlı klassik poeziyanın Füzuli davamçısı kimi yanaşmışlar. Lakin Axundzadə tənqidçiliyi, pedaqoji dünyagörüşü və maarifçilik fəlsəfəsi Seyid Əzim Şirvaniyə qələmini bədii nəsrdə də sınamağa mane olmamış, şair nəzmlə, lirik növlə kifayətlənməyib, həyata və ictimai məsələlərə münasibətini daha münasib formada və məzmunda bildirmişdir.

Seyid Əzim Şirvani dövrün maarifçi ədəbi nümayəndələrindən biri kimi bədii nəsrin sadə, lakin mənalı formalarını seçmiş, çox az müraciət olunan janrlarda bədii örnəklər yaratmış, məharətlə xalqın dərdini, sevincini, sadəliyini

və həyatı anlama tərzini kiçik nəsr janrları vasitəsilə poetik duyumla vermişdir. Lətifələrində xalq yumoru, hekayətlərində əxlaqi dərslər, nadirə adlandırıla biləcək qısa epizodlarda isə həm həyat həqiqətləri, həm də sosial tənqid ustalıqla təqdim edilir.

Əslində ərəb-fars dilini və ədəbiyyatını gözəl bilən Seyid Əzimin bu yanaşması klassik Şərq ədəbiyyatı ənənələrinə əsaslanır. Ərəb və fars ədəbiyyatında uzun illərdir mövcud olan "hekayə" (ḥikāyah), "lətifə" (laṭīfa) və xüsusilə "maqama" janrları həm ibrətamiz, həm də əyləncəli məzmun daşıyır. Məşhur ərəb müəlliflərindən Bədiüz-Zəman Həmazani və Hariri "maqamat" janrının əsasını qoymuş, qısa, yumorlu, lakin dərin mənalı nəsr parçaları ilə bu sahədə örnək olmuşlar. Bu janrlar həm xalq arasında yayılmış, həm də yazılı ədəbiyyatın ayrılmaz hissəsinə çevrilmişdir.

Azərbaycan ədəbiyyatında isə bu janrlara – nağıl, məsəl, lətifələrə həm xalq ədəbiyyatında, həm də maarifçi ədiblərin yaradıcılığında təsadüf edilir. Seyid Əzim Şirvani bu xətti davam etdirərək, ərəb-fars ədəbi formasını yerli mədəniyyət və dil ilə uzlaşdırır. Onun hekayə və lətifələri sadə xalq dilində, lakin dərin mənalı məzmunla yazılmışdır. Burada əsas məqsəd – xalqın tərbiyəsi, maarifləndirilməsi və düşündürülməsidir.

**Seyid Əzim Şirvaninin nadirələri.** Ədəbiyyatşünaslıqda "nadirə" janrı o qədər də geniş təsnif edilməyib. Xalq yaradıcılığında qısa hekayə, məsəl və ya nadir hadisələri əks etdirən nəsr nümunəsi kimi başa düşülmüşdür.

Nadirə − klassik Şərq ədəbiyyatında geniş işlənən və əsasən qısa, lakin məzmun baxımından zəngin, diqqətçəkən həyat epizodları və ya hekayətlərini ifadə edən bir janrdır. "*Məzmun və üslub xüsusiyyətlərinə görə lətifələri xatırladır*" [Əsgərli, 2014:163]. Bu janr həm ədəbi, həm də sosial-tənqidi funksiyaları yerinə yetirir və çox vaxt həyatın fərqli aspektlərini − insani duyğuları, sosial ziddiyyətləri, bəzən yumoru, bəzən də kədəri − ustalıqla əks etdirir. XX əsr ədəbiyyat nəzəriyyəsi dərsliklərində epik növün janrları içərisində "nadirə" janrının xatırlanmamasını da bu janrın Azərbaycan ədəbiyyatında geniş yayılmaması ilə əlaqələndirə bilərik [bax: Şəmsizadə, Əliyev].

Ərəb ədəbiyyatında "maqama" və ya "lətifə" kimi tanınan janrlarla qohumluq təşkil edən nadirə Azərbaycan ədəbiyyatında özünəməxsus inkişaf yolunu keçmişdir. Qısa həcmli olsalar da, məzmunca dolğun nadirələrdə xalq həyatından götürülmüş real və ya simvolik hadisələrin təsviri yer alır. Seyid Əzim Şirvani yaradıcılığında nadirələr əsasən qısa epizodik hekayələr formasında işlənmiş, bəzən lətifə və hekayət janrlarının hüdudlarını

birləşdirən sərhəd formaları kimi çıxış etmişdir. Ə.Mirəhmədov şairin əsasən ərəb folklorundan və orta əsr Şərq ədəbi abidələrindən istifadə yolu ilə yaratdığı nadirələrin bir qisminin sonralar Molla Nəsrəddin lətifələri sırasına keçdiyini yazır [Mirəhmədov, 1988:159]. Şair özünün əxlaqi, ictimai və fəlsəfi mesajlarını cəmiyyətə ötürmək üçün bu janrın imkanlarından istifadə etmiş, daha çox həyatın paradokslarını, insan xarakterinin ziddiyyətlərini, sosial münasibətlərin çatışmazlığını vurğulamışdır.

Seyid Əzimin nadirələrinin qəhrəmanı Cüha adlı bir şəxsdir. Cüha təmiz-qəlbli, sadəlövh, xeyirxah, bir qədər də gülməli bir obrazdır. Cühanın başına gələnlər də avamlığından irəli gəlir. Molla Nəsrəddin kimi Cühanın da bir eşşəyi var. Bir gün itmiş eşşəyini tapana iki eşşək vəd edən Cühadan insanlar "bir itmiş eşşəkdən ötrü necə iki eşşək müjdəganlıq vermək olar?" deyə soruşduqda Cüha "*bilmirsiz ki, itmiş eşşəyi tapmaqda nə ləzzət var*" deyə cavab verir [Şirvani, III c., 2005:258].

Cüha o qədər avamdır ki, evlənəndən üç ay sonra dünyaya gələn uşağına "Qasidi-tezqədəm" adını qoyur ki, doqquz aylıq yolu uşaq üç ayda gəlibdir. Cühanın timsalında şair avamlığın, sadəlövhlüyün insanı çox vaxt fəlakətə sürüklədiyini, gülüş hədəfi olduğunu yumoristik dillə qələmə alır.

Seyid Əzimin nadirə janrına müraciət etməsi, bu janr vasitəsilə həm klassik ənənələrə sadiqliyi, həm də yenilikçi yanaşması şairin ədəbi portretini daha da dolğunlaşdırır və onun nəsrdə janr sərhədlərini aşdığını aydın göstərir.

**Seyid Əzim Şirvaninin lətifəsi**. "Ədəbiyyatşünaslıq terminləri lüğəti"ndə lətifə "türkdilli xalqların, ərəb, İran, tacik və s. xalqların şifahi ədəbiyyatında kəsərli və ya məzəli sonluqla bitən qısa hekayə; ictimai həyatdakı və məişətdəki yaramaz, gülünc hadisələri yığcam şəkildə əks etdirən, nəsrlə yaradılan epik əsər" adlanır. Ədəbiyyatşünaslıqda lətifə gah satirik (Ə.Mirəhmədov), gah da yumoristik janr (Z.Əsgərli) sayılmışdır. Yazılı ədəbiyyatda lətifə janrının ilk nümunələrinə XIV əsr tacik-fars satiriki Zakaninin, XVI əsrdə Fəxrəddin Safi və Əhməd Süruşun yaradıcılığında rast gəlinir.

Klassik ərəb ədəbiyyatında zarafat, qısa hekayə (lətifə) formaları çox vaxt həm maarifçi, həm də satirik məqsədlərlə istifadə edilmişdir. Lətifələr qısa və konkret süjet xəttinə malik, aforistik ifadələrlə zəngin xalq danışıq dilində, sadə, lakin mətnaltı mənaların tənqidi-yumoristik mövqeli, tipajlar üzərindən cəmiyyətin real təsvirini verməyə çalışan bir janrdır. Məqsəd gülüş vasitəsilə düşündürmək, ifşa etmək, sosial mədəni məqamları vurğulamaqdır. Lətifə janrı xalq ədəbiyyatının ən canlı və təsirli formalarından biri kimi həm əyləndirici, həm də düşündürücü funksiyaya malikdir. Bu janrda əsas məqsəd yumor

vasitəsilə sosial, mənəvi və ya fərdi bir vəziyyəti ifşa etmək, tənqid etmək və ya ibrət dərsi verməkdir. Şifahi xalq ədəbiyyatında lətifə "*qəhrəmanları öz hazırcavablıqları, iti ağılları, dərin bilikləri, qabiliyyətləri, zəkaları, qorxmaz, doğruçu olmaları ilə mühitlərindəki adamların hamısından seçilir, onlardan yüksəkdə dururlar. Azərbaycan folklorunda Molla Nəsrəddin, Bəhlul Danə, Mirzə Bağı, Hacı dayı kimi lətifə qəhrəmanları məşhurdur. Onların adı ilə söylənən lətifələrdə dövrün, zəmanənin eybəcərlikləri, cəmiyyətdəki yaramazlıqlar, insanların xarakterində təsadüf olunan naqisliklər gülüş predmetinə çevrilir*" [Əsgərli, 2014:123].

Seyid Əzim Şirvani klassik ədəbiyyatın maarifçilik və tənqidçilik missiyasını bu sadə, lakin təsirli janr vasitəsilə həyata keçirməyə çalışan sənətkarlardan olmuşdur. Şairin lətifələri əsasən qısa həcmli, dialoq əsaslı və xalq dilinə yaxın üslubda qurulmuşdur. Bu, əsərləri geniş oxucu təbəqəsi üçün anlaşıqlı və cəlbedici edir. Lətifələrində şair təkcə gülüş yaratmır, həm də cəmiyyətin qüsurlarını – cahilliyi, riyakarlığı, nadanlığı, ədalətsizliyi yumorla tənqid edir.

Seyid Əzimin lətifələri çox zaman konkret bir epizod və ya şəxsin ətrafında cəmlənir. Tipik personajlar − xan, mollalar, kəndlilər, tərəkəmələr vasitəsilə müəllif həm sosial təbəqələr arasındakı fərqləri, həm də insanların düşüncə tərzini göstərir. Bu baxımdan onun lətifələri həm ədəbiyyat, həm də xalq psixologiyasını öyrənmək baxımından qiymətlidir.

Seyid Əzim lətifələrində ironiya və kinayə sosial problemləri, riyakarlığı, cahilliyi ifşa edir. Bu, əsərlərə həm ədəbi rəng qatır, həm də oxucuda düşünmə və özünütənqid qabiliyyəti yaradır. Lətifələrdə mollalaların riyakarlığı, xanların ədalətsizliyi, cahilliyi yumşaq, gülərüz təhkiyə ilə tənqid olunur. Qarabağlı Talıb xan, Şirvan xanı Mustafa xan nadanlıqları ucbatından rəiyyətin gülüş hədəfinə çevrilir. Bərk yuxuda ikən nökərlərinin bişirib yediyi qırqovulu həqiqətən özünün yeyib yatdığına inanan Talıb xan "doğrudur, şünki ciyərim çox yanır, məlum ki yemişəm, yatmışam, bir qədər su verin" deyib yenidən yuxuya gedir. Sadə təhkiyədə xanı aldadan nökərlərin fərasəti ilə şair sadə adamların daha tədbirli, ağıllı olduğunu göstərir.

Başqa bir lətifədə avam kəndli xanın qəzəbinə tuş gəlir; xanın "toyuğun harası yeməlidir və ləzzətlidir" sualına özündən əvvəl "dərisi ləzzətlidir" deyən bir başqasını xanın mükafatlandırdığını gördüyündən xanın ondan "gömuş ətinin harası ləzzətlidir və yeməlidir?" sualına da "gomuş ətinin hər yerindən ləzzətli gönüdür" deyir və xanın qəzəbinə səbəb olur [bax: Şirvani, III c., 2005:256].

Seyid Əzim lətifə vasitəsilə "gülə-gülə düşündürmək" metodundan

istifadə etmişdir. Bu yanaşma onu yalnız şair deyil, həm də xalq pedaqoqu, psixoloqu və sosial müşahidəçi kimi təqdim edir. Onun lətifələri bu gün də aktual olan mətləbləri ehtiva edir, çünki insan təbiətindəki ziddiyyətlər zamanla dəyişmir.

**Seyid Əzim Şirvaninin hekayətləri.** Hekayət qısa süjetli, əsasən mənzum şəkildə əxlaqi-didaktik məzmunlu hekayələr olub Azərbaycan klassik ədəbiyyatında, xüsusilə də Şərq ədəbi ənənəsi zəminində formalaşmış geniş yayılmış bir nəsr formasıdır. Bu janrda hadisələr qısa süjet xətti üzrə inkişaf edir, lakin əsas məqsəd − hadisəni deyil, ideyanı, ibrəti, əxlaqi dərsi çatdırmaqdır. Ədəbiyyatşünaslıq terminləri lüğətində hekayət "*əhvalat və hadisələri təhkiyə yolu ilə təqdim edən süjetli əsər − povest*" [Əsgərli, 2014:85] adlandırılır.

Hekayətlər çox zaman mənzum formada, yəni şeir üslubunda yazılır, lakin nəsr məzmunu daşıyır. Bu isə janra həm poetik gözəllik, həm də daha çox ifadə sərbəstliyi verir. Klassik ədəbiyyatda Nizami Gəncəvi ("Sirlər xəzinəsi", "Yeddi gözəl" əsərlərində), Məhəmməd Füzuli ("Leyli və Məcnun" poemasında), Məhəmməd Əmani, Mirzə Şəfi Vazehin hekayətləri vardır. M.F.Axundzadə janrın imkanlarının genişliyinə görə povest ("Hekayəti-Yusif şah") və komediyalarını ("Hekayəti-mərdi-xəsis", "Hekayəti-Molla İbrahimxəlil kimyagər" və s.) hekayət adlandırmışdır.

Seyid Əzim Şirvani də hekayət janrından geniş istifadə etmiş, öz maarifçi və tənqidi fikirlərini bu yolla xalqa çatdırmışdır. Onun hekayətləri əsasən əxlaqi, dini, ictimai mövzularda yazılmışdır. Burada müəllif ideal insan modeli, düzgünlük, ədalət, sadəlik, təvazökarlıq kimi mənəvi dəyərləri nümunələrlə təqdim edir. Mənzum hekayətlərdən fərqli olaraq, mənsur hekayətlərin həcmi çox qısadır, bəziləri hətta 2-3 cümlədən ibarətdir. Hekayətlərin əksəriyyəti Nizami poemalarındakı hekayətləri xatırladır; "Nuşirəvan və qarı", "Nuşirəvan və iki bayquş", "Soltan Mahmudun nağılı", "Nuşirəvan və qonaqpərvər kişi hekayəsi", "İsgəndər və vəziri", "Çin padşahının İsgəndərdən sualı" və bu kimi hekayətlərin qəhrəmanları da Nizami poemalarından tanıdığımız hökmdar, vəzir və digər obrazlardır. Sələflərində olduğu kimi, Seyid Əzim də hekayətlərində hökmdarları ədalətə çağırış, insanpərvərlik, xeyixahlıq, rəiyyətin qayğısına qalmaq, nadanlıq və cahilliyə son motivlərinə geniş yer vermişdir. "Nuşirəvan və qarı" hekayəsində kimsəsiz, yoxsul bir qarının dolanışığından və sözlərindən ibrət alan hökmdar "Nuşirəvan və iki bayquş"da bayquşların söhbətindən rəncidə olur, başqa bir hekayətdə məzlumu incitdiyinə görə zalımı cəzalandırır. Harun-ər Rəşid, İsgəndər

Zülqərneyn, Hatəm Tai, Soltan Məlik şah Səlcuqi hekayətlərdə rəiyyətin qayğısına qalan, xeyirxah, doğrucul, dünya malında gözü olmayan hökmdarlar kimi təqdim olunur; halalla haramı ayırmaq, acizin haqqını müdafiə etmək, səbr və təmkinlə doğru qərar vermək Seyid Əzimin hökmdar obrazlarını bir qədər fərqləndirir.

Bəzi hekayətlər çox yığcam olub nəsihət xarakteri daşıyır: "Həmişə Məmun xəlifə deyərdi ki, əgər xəlayiq bilsələr ki, mənim üçün əfvdə nə ləzzət var, əlbəttə, mənim dərgahıma günah tövbəsindən qeyri özgə töhfə gətirməzdilər". Bir cümlədən ibarət bu hekayətdə xəlifə üçün ən böyük töhfənin günahını tövbə edənləri əfv etməsi göstərilir. Dərgahına gəlib günahını tövbə edənləri xəlifə bağışlayır, cəzalandırmır. Seyid Əzim ilk növbədə kiçikyaşlı oxucusuna bağışlamağın böyük nemət olduğunu, insanlara inanmağı, onlara səhvlərindən nəticə çıxarıb düzgün yola qayıtmağa imkan verməyi tövsiyə edir.

Başqa bir hekayətdə Harun ər-Rəşid Bəhlul Danəndədən elə bir nəsihət istəyir ki, həmişə ona əməl eləsin. Bəhlul xəlifəyə dünyadan özü ilə savabdan başqa heç bir şey apara bilməyəcəyini söyləyir. İslamda savab xeyirxah əməllərinə görə Allahın bəndələrinə verəcəyi mükafatdır. Bir hökmdarın savab qazanması məzluma, acizə, ac-yalavaca əl tutması, haqqı nahaqqa verməməsi deməkdir. Savabın əksi, Allahın qadağan etdiyi isə günahdır. Harun ər-Rəşidin Bəhlul Danəndədən məsləhət istəməsi ilə isə şair hakimiyyətin, mal-mülkün, var-dövlətin, gücün ağlın qarşısında həmişə aciz olduğunu göstərir [Şirvani, III c., 2005:245].

Hatəm Tai ilə bağlı bir hekayətdə şair insanın həyatı boyu yaxşı əməllər, xoş işlər görməyini, bu əməllərinə görə mükafatlandırılacağını, axirətini unutmamağı tövsiyə edir. Hatəm Tainin oğlu bir gün eşidir ki, atasının qəbrini sel basıb. Qəbri açdırır ki, nəşi başqa yerə köçürsün. Qəbri açdıqda görürlər ki, təkcə iki əli salamat qalıb. Camaat buna təəccüb edir, bir nurani deyir ki, heyrətlənməyin, o bu iki əli ilə çox möhtaclara ehsan edib, qarnını doyurub. Maarifçi şair islamın "insan pis əməlinin cəzasını, yaxşı əməlinin mükafatını bir gün alır" müddəası ilə insanları kim olmasından asılı olmayaraq, yaxşılıq etməyə, xeyirxah işlər görməyə dəvət edir [Şirvani, III c., 2005:250].

Əxlaqi naqisliklərin insan təbiətində sonradan qazanıldığını, cəmiyyətə bir bəla, mənəvi qüsur olduğu, fiziki qüsurlu şəxslərin isə (kar, kor, çəpgöz) ibrət aynası olduğunu insanın daxili dünyası ilə bağlayır. Xəbərçilik, oğurluq, yalançılıq, xəsislik, tamahkarlıq kimi xüsusiyyətlərin sonradan qazanıldığını, insana utanc gətirdiyi, dost-tanış yanında bihörmət etdiyini şair lakonik, ibrətamiz hekayətlərdə verir.

"Balaca qarışqa və təpə" hekayətində inadcıllıq, səy göstərmək, verdiyin vədə əməl etmək kimi keyfiyyətlər təbliğ olunur. Bir quş qarışqanın əziyyətlə təpənin qumunu daşıdığını görür. Qarışqanın zəif bədəni ilə niyə belə ağır işə əl atdığını soruşduqda qarışqa sevgilisinə onu həqiqətən sevdiyinə inandırmaq üçün təpənin qumunu başqa yerə daşımağa məcbur olduğunu bildirir. Quş "ey biçarə, bu arzu ki sənin könlündədir, qüdrətindən böyükdür, qolunda o qədər güc yoxdur ki, bu işi başa vurasan" deyir. Qarışqa cavabında "mən öz səyimi elərəm, əgər muradım qəbul olmasa da, dost hüzurunda üzrüm qəbuldur" deyir. Hekayət şairin "bəs hər işdə səy eləmək lazımdır" tövsiyəsi ilə bitir [Şirvani, III c., 2005:254].

"Rəbiül-ətfal" dərsliyinə daxil etdiyi hekayətlər tədris materialı kimi məktəbyaşlı uşaqlarda əxlaqi-mənəvi dəyərlərin, estetik idealların tərbiyəsi istiqamətində Seyid Əzimin maarifçi dünyagörüşünü səciyyələndirir.

**Nəticə/Conclusion**

Seyid Əzim Şirvaninin bədii nəsr nümunələri dilinin sadəliyi və xalq danışıq üslubuna yaxınlığı ilə səciyyələnir. Xalqın gündəlik danışıq tərzi, folklor ənənələri və aforizmləri ustalıqla şairin hekayət, lətifə və nadirələrində yer almışdır. Xüsusilə nadirə janrında Seyid Əzim Azərbaycan ədəbi mühitinə yeni nəfəs gətirmiş, qısa epizodik nəsr nümunələri ilə sosial, mənəvi və əxlaqi mövzuları ustalıqla çatdırmışdır. Təbii ki, bu üslub seçimi Seyid Əzimin maarifçilik missiyasından irəli gəlirdi.

Seyid Əzim Şirvaninin bədii nəsr yaradıcılığı yalnız fərdi yaradıcılıq nümunəsi deyil, həm də Şərq ədəbi ənənələrinin milli zəmində davamı və transformasiyası kimi qiymətləndirilə bilər. Bu kontekst şairin nəsrlə yaratdığı nümunələrin həm tarixi, həm də ədəbi dəyərini müəyyənləşdirmək üçün vacib zəmin yaradır.

## ƏDƏBİYYAT/REFERENCES

1. Azərbaycan ədəbiyyatı tarixi (2011). 6 cilddə, IV c. – Bakı: "Elm". – 858 s.
2. Ədəbiyyatşünaslıq terminləri lüğəti (1988) / Tərtib edən: Ə.Mirəhmədov – Bakı: "Maarif". – 268 s.
3. Əliyev, M. (2009). Ədəbiyyat nəzəriyyəsinin əsasları. – Bakı: "Elm və təhsil". – 480 s.
4. Əsgərli, Z. (2014). Poetika: izahlı sözlük. – Bakı: "Elm". – 262 s.
5. Əsgərli, Z. (2011). Seyid Əzim Şirvani / Azərbaycan ədəbiyyatı tarixi (2011). 6 cilddə, IV c. – Bakı: "Elm". – s.542-576.

6. Qasımzadə, F. (1974). XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. – Bakı: “Maarif”. – 488 s.

7. Məmmədov, X. (2005). Köhnə dünyanın sonuncu, yeni dünyanın birinci şairi / S.Ə.Şirvani. “Seçilmiş əsərləri”. 3 cilddə, I c. – Bakı: “Avrasiya Press”. – s.4-32.

8. Səmədzadə, H. (1937). Seyid Əzim Şirvani / S.Ə.Şirvani. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr. – s.4-12.

9. Şəmsizadə, N. (2012). Ədəbiyyat nəzəriyyəsi. – Bakı: “Proqres” nəşriyyatı. – 434 s.

10. Şirvani, S.Ə. (2005). Seçilmiş əsərləri. 3 cilddə, III c. – Bakı: “Avrasiya Press”. – 288 s.

**Məqalə tarixçəsi**
*Daxil olub* 06.06.2025
*Qəbul edilib* 22.06.2025
*Nəşrə tövsiyə edib* *Razim Məmmədov*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*